შეფასებისა და გამოცდების ეროვნული ცენტრი

Dekabr, 2025

# Coğrafiya üzrə test

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Testin hər bir tapşırığının təlimatı ilə diqqətlə tanış olun, hər tapşırığın tələbini yaxşı düşünün və sonra işə başlayın.

Testin üzərində işləyərkən əlavə olunmuş xəritələrdən istifadə edin.

Nəzərə alın ki, düzgün cavabla birlikdə qeyri-düzgün cavab da göstərsəniz, bal qazana bilməyəcəksiniz.

Testin maksimum balı - 55

Testin üzərində işləmək üçün sizə 4 saat vaxt verilir

Sizə uğurlar arzulayırıq!

- ***Seçmə cavablı sual***

**Təlimat**

Hər bir sualın dörd ehtimal olunan cavabı vardır. Bunlardan yalnız biri doğrudur. Seçilmiş cavabı cavab vərəqəsinə aşağıdakı kimi köçürün: cavabların müvafiq xanasında X işarəsini qeyd edin. Heç bir başqa qeyd, şaquli və üfüqi xətlər, dairəyə almaq və s. elektron proqramı tərəfindən qəbul edilmir. Əgər cavablar vərəqində qeyd olunmuş cavabı düzəltmək istəyirsinizsə, X işarəsi qoyduğunuz xananı bütövlükdə rəngləyin, sonra cavabın yeni variantını qeyd edin (yeni xanada X işarəsi yazın). Üzərində düzəliş etdiyiniz cavabı ikinci dəfə seçmək olmaz. Hər bir tapşırıq 1 balla qiymətləndirilir.

- ***Açıq tapşırıq***

**Təlimat**

Verilən məlumatları (mətn; foto; cədvəl; qrafik; diaqram; fiziki, kontur, topoqrafik xəritələr və s.) diqqətlə oxuyun və suallara cavab verin. Cavabları cavab vərəqində ayrılmış uyğun yerə yazın. Balların miqdarı konkret tapşırığa əsasən müəyyənləşdirilir.

**(1) 1. İllüstrasiyada nə təsvir olunub?**




ა) buxarlanma effekti;

ბ) karbon dövranı;

გ) suyun dövranı;

დ) istixana effekti.

**(1) 2. Verilən illüstrasiyalar Afrika qitəsi üçün nəyin dəyişdiyini təsvir edir?**




ა) iqlim qurşaqlarının;

ბ) tektonik plitələrin;

გ) təbii zonaların;

დ) relyef formalarının.

**(1) 3. Göstərilən xəritədə Avropa dövlətləri hansı indeksə əsasən qruplaşdırılıblar (ən yaxşı göstərici 10-dur)?**




**Xəritə 2024-cü ilin göstəricilərinə əsasən tərtib edilib**

ა) yük dövriyyəsi;

ბ) Cini;

გ) qloballaşma;

დ) liberal demokratiya.

**(1) 4. Niderland müstəmləkələri xəritədə hansı rənglə (rəqəmlə) qeyd edilib?**




**Müstəmləkə imperiyaları 1800-cü il**

ა) yaşıl (3);

ბ) göy (2);

გ) qırmızı (1);

დ) narıncı (5).

**(1) 5. Verilən qrafik Gürcüstan üçün hansı göstəricilərin dinamikasını əks etdirir?**




ა) istehlakçı səbətində xidmət, əyləncə və ərzaq məhsullarının payını;

ბ) təyin edilmiş beynəlxalq yoxsulluq həddindən aşağı olan əhalinin payını;

გ) iqtisadi sektorlara əsasən xarici sərmayelərin payını;

დ) İşlə təmin olan əhali arasında maksimal, orta və minimal əmək haqqının payını.

**(1) 6. Hansı foto Vaşlovani qoruq ərazisinin hüdudlarında *çəkilməyib?***

| | |
|---|---|
| ა)  | ბ)  |
| გ)  | დ)  |

**(1) 7. Hansı buzlaq İnquri çayının hövzəsində *yerləşmir?***



ა) Çalaati;

ბ) Adişi;

გ) Buba;

დ) Lexziri.

**(1) 8. Fotoda verilən bolsulu landşafta nə deyilir?**



ა) pampa;

ბ) bedlend;

გ) marş torpaqlar;

დ) meandr.

**(1) 9. 4 İyul hansı dövlətin müstəqillik günüdür?**



ა) Çinin;

ბ) İsrailin;

გ) Almaniyanın;

დ) ABŞ-ın.

**(1) 10. Maqnit kompasla bağlı hansı məlumat *<u>səhvdir?</u>***




ა) Bu cihazdan yerində səmtləşmə üçün istifadə edilir;

ბ) Avropalılar arasında ilk dəfə onu arqonavtlar istifadə ediblər;

გ) Coğrafi qütbün istiqamətini təyin etmək üçün onun göstəricisində düzəliş etmək lazımdır;

დ) Maqnit anomaliyası sahələrində, məsələn, İynə Burnu ətraflarında, səhv göstərir.

**(1) 11. Hansı diaqram cənub-şərq istiqamətli küləklərin çox olduğu yerə uyğundur (küləkli günlərin sayı ədədlərlə qeyd edilib)?**



**(1) 12. Qara dənizlə bağlı hansı mülahizə doğrudur?**

ა) Onun heç bir hissəsi heç vaxt donmur;

ბ) Hər il onun cənub hissəsi donur;

გ) Hər vaxt onun şərq hissəsi donur;

დ) Bəzən onun şimal-qərb hissəsi donur.

**(1) 13. Verilən xəritədə hansı izoxətlər qeyd olunub?**




ა) izobat;

ბ) izobar;

გ) izoterma;

დ) izogiyet.

**(1) 14. İllüstrasiyada təsvir olunan cihazla nəyi ölçürlər?**



ა) Havanın nisbi rütubətini;

ბ) Yer qabığının rəqslərini;

გ) Okean səviyyəsinin dəyişməsini;

დ) Atmosfer təzyiqinin dəyişkənliyini.

**(1) 15. Fotolar hansı ölkədə çəkilib?**









ა) Avstriyada;
ბ) İsveçrədə;
გ) Norveçdə;
დ) İtaliyada.

**(1) 16. Verilən iqlim diaqramı hansı rəqəmlə qeyd edilən yerə uyğundur?**







ა) 1

ბ) 2

გ) 3

დ) 4

**(1) 17. Sadalananlar arasında hansı cavabda geoloji qatlar geoxronoloji ardıcıllıqla (ən qədimdən ən cavana) düzülüb?**




ა) D-E-C-B-A

ბ) E-D-C-B-A

გ) D-C-E-B-A

დ) D-C-B-E-A

**(1) 18. Demoqrafik piramidada hansı dövlətin göstəriciləri əks olunub?**




ა) Şri-Lankanın;

ბ) Birləşmiş Krallığın;

გ) Səudiyyə Ərəbistanının;

დ) Nigeriyanın.

**(1) 19. İqtisadiyyat sektorlarında işlə təmin olunanların bölgüsünün Klark-Fişer modelinə əsasən, hansı rəqəmlə qeyd edilən qrafik kənd təsərrüfatında işlə təmin olunanların payına uyğundur?**




ა) 1
ბ) 2
გ) 3
დ) 4

**(1) 20. Satelit (peyk) fotosunda nə göstərilib?**




ა) Şimal yarımkürəsində formalaşan siklon;
ბ) Şimal yarımkürəsində formalaşan antisiklon;
გ) Cənub yarımkürəsində formalaşan siklon;
დ) Cənub yarımkürəsində formalaşan antisiklon.

**(1) 21. Xəritədə 2050-ci il üçün əhali arasında suya tələbatın və əlçatanlığın ehtimal qıtlıq proqnozu əks olunub. Sadalananlar arasında hansı ölkədə su qıtlığı _ən az_ gözlənilir?**




ა) Hindistanda;

ბ) ABŞ-da;

გ) İtaliyada;

დ) Yeni Zelandiyada.

**(1) 22. Tapşırıqda verilən xəritə nəyi təsvir edir?**




ა) Mətbuat azadlığı səviyyəsini;

ბ) İngilis dili üzrə bilik səviyyəsini;

გ) Demokratiya səviyyəsini;

დ) Gender bərabərliyi səviyyəsini.

**(1) 23. Sadalanan ölkələrdən hansında əhalinin demoqrafik yaşlanma problemi ən kəskin şəkildə durur?**




**Xəritədə ölkələr median yaşa əsasən göstərilib**

ა) Nigeriyada;

ბ) Avstraliyada;

გ) İndoneziyada;

დ) Yaponiyada.

**(1) 24. Xəritəyə əsasən hansı sübutun doğru olduğunu müəyyən edin?**

**Fertil yaşda olan qadınların dünyaya gətirdiyi uşaqların sayı (2021-ci il)**




ა) 2021-ci ildə ən yüksək doğum əmsalı ilə Ərəb Afrikası seçilir;

ბ) 2021-ci ildə Gürcüstanda və dünyada fertillik əmsalı eyni diapazondadır;

გ) 2021-ci ildə Orta Asiya ölkələri arasında ən aşağı doğum Qazaxıstandadır;

დ) 2021-ci ildə Kanadada və dünyada fertillik göstəricisi eyni diapazondadır.

**(1) 25. 2014-cü ildə BMT-nin Təhlükəsizlik Şurasının terrorçu təşkilatlar siyahısına daxil etdiyi islamçı ekstremist qruplaşması “Boko Haram” hansı dövlətdə formalaşıb?**

ა) İsraildə;
ბ) Pakistanda;
გ) Nigeriyada;
დ) Əfqanıstanda.

**(1) 26. Verilən xəritədə ölkələr nəyin əsasında qruplaşdırılıb?**




ა) Bank krediti olan əhalinin payının;

ბ) Əhali arasında işsizlik səviyyəsinin;

გ) Ailədə qadınlara qarşı zorakılığın;

დ) Əhali arasında dindarlıq səviyyəsinin.

**(1) 27. Verilən xəritədə şəhərlər hansı prinsip ilə nömrələnib?**




ა) Ərazi sahəsinin böyüklüyünün;

ბ) Həyat səviyyəsinə əsasən;

გ) Kriminal vəziyyətin;

დ) Əhali sayının böyüklüyünün.

**(1) 28. Hansı nöqtə hipsometrik cəhətdən *daha alçaqda* yerləşir?**




ა) A

ბ) B

გ) C

დ) D

### (1) 29. Hansı çayın düşməsi daha çoxdur?




ა) Çala çayının (მდ. ჭალა);

ბ) Xevi çayının (მდ. ხევი);

გ)Barula çayının (მდ. ბარულა);

დ) Mareti çayının (მდ. მარეთი).

**(1) 30. Barula çayının mənbəyi C nöqtəsindən təxminən hansı azimutda yerləşir?**




ა) $40^0$

ბ) $70^0$

გ) $95^0$

დ) $110^0$

**(1) 31. Verilən profil xəritədəki hansı parçaya uyğundur?**







ა) AB

ბ) CD

გ) EF

დ) GH

**(2) 32. Topoqrafik xəritəyə köçürülmüş bütün nöqtələri (A, B, C, D, E) adlandırın, haradan ki Çkudi çayı üzərində yerləşən körpünü görmək <u>*mümkün olmayacaq?*</u> Cavabı izah edin.**




**Keçid:**
**tapşırığın <u>II səhifəsinə</u>**

## რელიეფი

ძირითადი ჰორიზონტალები გავლებულია ყოველ 10 მეტრში




ა) ძირითადი ჰორიზონტალები
ბ) ძირითადი გამსხვილებული ჰორიზონტალები
გ) დამატებითი ჰორიზონტალები (ნახევრადჰორი-ზონტალები)
დ) ჰორიზონტალების სიმაღლის ნიშნულები მ-ში
ე) კალთის დახრის მაჩვენებლები (ბერგშტრიხები)




სიმაღლის ნიშნულები ა) ძირითადი ბ) ჩვეულებრივი

სიმაღლის ნიშნულები ორიენტირებით




ფლატე (ბექი) (16-ხრამის სიღრმე მ-ში)

ხრამები და ღარტაფები

## მცენარეული საფარი და გრუნტი




წიწვოვანი ტყე

ფართოფოთლოვანი ტყე

შერეული ტყე

ხემცენარეების მახასიათებლები მ-ში: 20-საშუალო სიმაღლე, 0.20-მერქნის საშულო სისქე, 6-ხეებს შორის საშუალო მანძილი




ქვიშნარი

გაუვალი და ძნელადგასავლელი ჭაობები (0.7-ჭაობის სიღრმე მ-ში)

ადვილადგასავლელი ჭაობები

## საგზაო ქსელი



გზატკეცილი
გაუმჯობესებული გრუნტის გზები გასწვრივი მცენარეული ნარგავებით

გრუნტის გზები

მინდვრის და ტყის გზები

## დასახლებული პუნქტები



საცხოვრებელი და სხვა ტიპის ნაგებობები

გამორჩეულად ცეცხლგამძლე ნაგებობები
ცალკე მდგომი კარმიდამოები
ეკლესიები

**Keçid: tapşırığın I səhifəsinə**

(1) 33. **Verilən tədris resursunun istifadəsinin hansı məsələni öyrəndikdə ən çox məqsədəuyğun olduğunu izah edin.**



**(1) 34. Xəritədə hansı kənd təsərrüfatı mədəniyyətinin istehsalı təsvir edilib? Bu mədəniyyətin mənşə yeri Latın Amerikasıdır. O, hal-hazırda fastfood (tez yemək) obyektlərinin menyusunda geniş təqdim olunur.**




Data source: Food and Agriculture Organization of the United Nations (2025)

**(2) 35. Xəritədə 16-50 yaş qrupunda kontraseptivlərdən istifadə payı təsvir olunub. Mərkəzi (Ekvator) Afrika regionunun ölkələri aşağı faiz göstəricisi ilə seçilir. Qeyd edilən vəziyyətə səbəb olan iki arqument gətirin.**



(2) 36. Tayqa növündə təbii zonanın əsasən hansı iqlim qurşağında formalaşdığını adlandırın və bu təbii zonada bol rütubətli ekosistemləri inkişaf etdirən coğrafi amili müəyyənləşdirin.



## (4) 37. Devid Livinqstonun səyahət xəritəsini təhlil edin və suallara cavab verin:





Ucici şəhəri (Tanzaniya)

Keçid: tapşırığın II səhifəsinə

**(1) 37.1.** Hansı səyyah-jurnalist 1871-ci ildə Afrikaya Devid Livinqstonu axtarmağa gedib (onların görüşü şəkildə təsvir olunub)?

ა) Aleksandr Humboldt;

ბ) Henri Morton Stenli;

გ) Nikolay Mikluxa-Maklay;

დ) Frityof Nansen.

**(1) 37.2.** Səyyah-jurnalistin Devid Livinqstonla görüşü harada baş tutdu?

ა) Zambezi çayının mənbəyində;

ბ) Kalaxari səhrasında;

გ) Tanqanika gölünün sahillərində;

დ) Viktoriya şəlaləsində.

**(2) 37.3.** Devid Livinqstonun kəşf etdiyi coğrafi koordinatları 17°55´ c.e. və 25°51´ ş.u. olan coğrafi obyektləri adlandırın (cavablar vərəqində bu coğrafi obyekti birinci adlandırın); 11°05´ c.e. və 29°45´ ş.u. (cavablar vərəqində bu coğrafi obyekti ikinci adlandırın).

**Keçid: tapşırığın I səhifəsinə**

**(4) 38. XVIII əsrin ingiltərəli din xadimi, demoqraf və iqtisadçının nəzəriyyəsi əsasında yaradılmış sadələşdirilmiş qrafiki təhlil edin və suallara cavab verin:**




**(2) 38.1.** Tapşırıqda hansı alimdən söhbət getdiyini və özünün nəzəriyyəsi əsasında hansı nəticə çıxardığını adlandırın?

**(2) 38.2.** Alim aşkar edilən qlobal problemin həlli üçün hansı çıxış yolunu təklif edir və müasir dünyada sözügedən problemin həlli üçün hansı çıxış yolu tapıldı?

**(8) 39. Müasir dünyada əsas problemlərdən biri enerji resursları ilə təminatdır. Enerji resursları bazarında qiymət və çatdırılma nöqteyi-nəzərindən qeyri-sabit vəziyyət yaranıb. Aşağıda 2022 və 2023-cü illərdə Avropa İttifaqının təbii qaz bazarında yaranmış vəziyyəti müzakirə edə biləcəyimiz məlumat verilmişdir. Məlumatı təhlil edin və suallara cavab verin:**

## Təbii qazın nəqlinin Avropa İttifaqına alternativ yollarla çatdırılması (2023-cü il)







* Norveçin məlumatları 2022-ci ildə digər ölkələrin məlumatlarına daxil idi

**Keçid: tapşırığın II səhifəsinə, III səhifəsinə**







**(1) 39.1.** A diaqramına əsasən, 2022-ci ildə Əlcəzairdən Avropa İttifaqı ölkələrinə təbii qaz ixracı neçə faiz təşkil edirdi?

ა) 6%

ბ) 9%

გ) 13%

დ) 20%

**Keçid: tapşırığın I səhifəsinə, III səhifəsinə**

**(2) 39.2.** Avropa İttifaqına boru kəməri ilə və tankerlərlə təbii qazın çatdırılması ilə münasibətdə C diaqramında hansı tendensiya müşahidə olunur? Sözügedən dəyişikliyin əsas səbəbini adlandırın.

**(1) 39.3.** İzah edin, nə üçün A diaqramında Rusiyadan import edilən təbii qazın payı daha çox azalıb, nəinki B diaqramında.

**(1) 39.4.** 2022-ci ildə təbii qaz importunda bütövlükdə Rusiyadan asılı olan dövlətlərdən birini adlandırın.

**(1) 39.5.** İzah edin, 2022-ci ildə Avropa İttifaqının təbii qaz bazarında hansı ölkənin payı ən böyük idi?

**(2) 39.6.** 2022-ci ildə Avropa İttifaqının gün ərzində neçə milyard kub təbii qaz istifadə etdiyini hesablayın (hesablama prosesini mütləq göstərin) və mayeləşdirilmiş təbii qazın çatdırılma nöqteyi-nəzərindən hansı dövlətin lider olduğunu müəyyən edin?

**Keçid: tapşırığın I səhifəsinə, II səhifəsinə**